# Ali məktəblərdə "Azərbaycan tarixi"nin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsinin əhəmiyyəti

**Turanə Fazil qızı İsmayılova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
**E-mail:** turann1605@gmail.com

**Rəyçilər:** p.ü.f.d., prof. İ.H. Cəbrayılov,
p.ü.f..d. D.M. Musayev

**Açar sözlər:** Ümummilli lider Heydər Əliyev, Azərbaycan tarixinin tədrisi, ali məktəb, insan kapitalı, interaktiv təlim metodları, idrak fəallığının inkişaf etdirilməsi
**Ключевые слова:** Общенациональный лидер Гейдар Алиев, преподавание истории Азербайджана, университет, человеческий капитал, интерактивные методы обучения, развитие познавательной деятельности
**Key words:** National lider Heydar Aliyev, teaching the history of Azerbaijan, high school, human capital, interactiv teaching methods,, development of cognitive activity

Ali təhsil dövlətimizin tərəqqisində mühüm rol oynayır. "Kim təhsildə fərqlənir, o, günəş kimi işıq saçır" (1).

Möhtərəm prezidentimiz İlham Əliyev uzaqgörənliklə söylədiyi kimi "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik". Neft amilinin insan amilinə çevrilməsində yeganə çıxış yolu təhsildir (6).

Təsadüfi deyil ki, BMT XXI əsri "təhsil əsri" elan etmişdir. BMT-nin "Təhsil əsri" elan etdiyi XXI əsr yüksək intellektə malik insan kapitalının formalaşdırılmasını tələb edir. İnsan kapitalı – cəmiyyətdə özünü tam realizə etmək və cəmiyyətin imkanlarından istifadə etmək üçün insanın biliyinin, bacarığının əlaqələrinin, peşəkarlığının cəmidir. İlk dəfə olaraq, "insan kapitalı" anlayışı Teodor Şults tərəfindən işlədilmişdir. Bu sahəni onun davamçısı Herri Bekker inkişaf etdirmişdir (4).

1962-ci ildə amerikalı tədqiqatçı Fritz Maxlup tərəfindən ilk dəfə elmi ədəbiyyata "Biliklərə əsaslanan iqtisadiyyat" və ya "bilik iqtisadiyyatı" anlayışı daxil edilmişdir. Lundvall və Cohnson (1994) biliyi dörd kateqoriya üzrə təsnifləşdirirlər:

1. Bilmək - nə: biliklərə faktlar aiddir. 2. Bilmək - nə üçün: biliklərə təbiətin prinsipləri və qanunları, insan şüuru və cəmiyyət aiddir. 3. Bilmək - necə: vərdişlərə aiddir (yəni, bacarıqla nə isə etmək). 4. Bilmək - kim: sosial qabiliyyətə müxtəlif insan tipləri ilə qarşılıqlı təsir və əməkdaşlıq aiddir. İnsan kapitalına aid edilən bəzi aparıcı biliklər və şəxsi keyfiyyətlər aşağıdakı formada strukturlaşdırıla bilər:

1. Kommunikasiya 2. Hesablama. 3. Şəxsiyyətdaxili vərdişlər: 4. Şəxsiyyətlərarası vərdişlər: 5. Digər vərdişlər və xüsusiyyətlər (bir çoxu yuxarıda göstərilən sahələrə aid olan): (4)

Beynəlxalq təhsil tədqiqatları üzrə ekspert, professor Maykl Barber deyir: "Təhsil sisteminin keyfiyyəti onun müəlliminin keyfiyyətindən üstün ola bilməz". Müasir iqtisadiyyat yalnız biliklərə sahib deyil, həm də hər hansı bir şəraitdə həyat bacarıqlarını necə tətbiq edəcəyini bilən mütəxəssislərə ehtiyac hiss edir (8).

Ali məktəblərdə Azərbaycan tarixi dərslərinin interaktiv metodlarla tədrisində təhsil alanların idrak fəallığının yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir. Müstəqil Azərbaycanın Konstitusiyası əsasında formalaşan milli ideologiyamız əsasında müasir tarix təhsilinin qarşı-

sında dayanan əsas məsələ milli ideologiyalı, milli təfəkkürlü, milli özünüdərk xüsusiyyətlərinə cavabdehliyi bacaran vətəndaşlar formalaşdırmaqdır. Bu sahədəki uğurlarımızın bünövrəsində ümummilli liderimiz Heydər Əliyevin qayğısı, diqqəti və məhəbbəti dayanır. Ümummilli liderimiz Heydər Əliyev tariximizin öyrənilməsinə xüsusi diqqət verərək göstərirdi ki, "Gərək biz tariximizi heç vaxt unutmayaq, onun hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq".

Dövlətimizin ali təhsilə qayğısı nəticəsində müasir ali təhsil müəssisələri yeni elmi-metodik təfəkkürə əsaslanır. Müəllimin bələdçi roluna xüsusi əhəmiyyət verildiyi bir dövrdə ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsi xüsusilə önəmlidir. XXI əsr informasiya və intellekt əsridir. İnformasiya axını hər an surətlənir və yeniləşir. Bu da bir daha sübut edir ki, sürətli informasiya axınından baş açmaq və öz fəaliyyətini məqsədəuyğun təşkil etmək müasir insanın uğur qazanmasının rəhnidir. Hər bir gənc öz fəaliyyətinin məqsədini, ona çatmağın vasitə və yollarını düzgün müəyyənləşdirmək üçün ətrafında və dünyada baş verən iqtisadi sosial, siyasi və mədəni proseslərdən baş açmağı bacarmalıdır. Ali təhsilin məqsədi yalnız tələbəni savadlı etmək deyil. Müstəqil düşüncə və müdriklik kimi yüksək hədəflər hər zaman olduğu kimi keyfiyyətli təhsilin həlledici vəzifələridir. Ali təhsil müəssisələrində ən vacib məsələlərdən biri tələbə şəxsiyyətinin formalaşdırılmasıdır (2, s. 101).

Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrdə idrak fəallığının inkişaf etdirilməsi müasir dövrdə xüsusi əhəmiyyət və aktuallıq kəsb edir. İdrak fəaliyyətinin fəallaşdırılması dedikdə, məhz şəxsiyyətin dərk edən subyekt kimi özünü fəallaşdırması nəzərdə tutulur. Təlim fəaliyyətinin səmərəli qurulması bütün amillərin vəhdətinin nəzərə alınmasını tələb edir. Burada vacib amil şəxsiyyətin özünün fəallığıdır. Gerçəkliyin səmərəli dərki, onun qavranılması, münasibətin bildirilməsi üçün şəxsiyyət ilk növbədə idrak obyektinə maraq göstərməlidir. İdrak maraqlarının təşəkkülü, təlimə marağın mənbəyi isə ilk növbədə müəllim-tələbə qarşılıqlı münasibətlərindən asılıdır. Bu isə ilk növbədə ali məktəblərdə Azərbaycan tarixinin tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsi müəllimdən təlimin səmərəli təşkili üçün düzgün interaktiv təlim metodlarından istifadəni tələb edir. Tələbələrdə fəallığın təmin edilməsinə yönələn fəal, intensiv iş formalarından istifadə etmək və onları tətbiq edə bilmək olduqca əhəmiyyətlidir. Buna görə ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsi üçün təlim prosesində aşağıdakı bir sıra məsələlərin nəzərə alınması zəruridir:

a) Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində təlim prosesində tələbələrin müəllimlərlə tərəf müqabili kimi iştirakına və müəllim-tələbə əməkdaşlığına nail olunması, dərsin subyekt-subyekt əməkdaşlığı əsasında qurulması

b) Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində təlim prosesinin intensiv təşkili və tələbələrin bütün dərs boyu fəallığı

c) Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində dərs zamanı problemli vəziyyətin–problemli situasiyanın yaradılması və bütün dərs müddətində tələbələrin fəallığında fəal təfəkkürünün inkişafının təmin olunması

d) Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində təlim zamanı problem situasiyanın yaradılması, onların tədqiqatçılıq vərdişlərinə yiyələndirilməsi, tələbələrin idrak fəallığının inkişaf etdirilməsi

e) Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində biliklərin tətbiqi üçün yaradıcı şəraitin yaradılması

Prof. A.Mehrabov yazır: "Yeni təlim metodlarının tətbiqinə həm müəllimlər, həm də təhsil

alanlar dərindən yiyələnməlidirlər" (7, s. 39).

Təlim fəaliyyəti təlim prosesi və onun məzmunu ilə bağlı olaraq idrak, dərketmə motivi yaradır. İdrak motivasiyasını səciyyələndirən xüsusiyyət ondan ibarətdir ki, şəxsiyyətin idrak maraqları yeni biliklərin, yeni məlumatların əldə edilməsinə, yeni bir şeyin özü üçün kəşfinə yönəlir. Tələbələrin idrak fəallığı öyrənmənin hərəkətverici qüvvəsini təşkil edir. Tələbələrdə öyrənməyə tələbatın formalaşdırılması müəllimin pedaqoji ustalığından, öyrədənin öyrənənlərə hörmət və tələbkarlığa əsaslanan münasibətindən, təlimin metod və üsullarının düzgün seçimindən, tələbələrdə öz qüvvələrinə inamın aşılanmasından v.s. asılıdır. Tələbələr dərsdə yeni məzmunu qavramayanda biz əlavə vaxt sərf edərək onlara bunu sadə şəkildə uzun-uzadı başa salmağa, izah etməyə çalışırıq. Lakin bu heç də məsələnin həlli demək deyil. Müəllimin izahını təlimin əsas aləti kimi qəbul edərək biz şagirdlərə müəllimin informasiya mənbəyi, onların isə məlumat istehlakçısı olduğunu öyrədirik. Lakin müasir dövrümüzdə müəllim yeganə və əsl məlumat mənbəyi ola bilməz. Ali məktəblərdə Azərbaycan tarixinin tədrisində interaktiv tədris metodlarının köməyi ilə müəllim tələbələrə bilik verməklə yanaşı, tələbələrin maraq, bacarıqlarının artırılmasına, idrak fəallığına, eləcə də praktik fəaliyyətdə onların müstəqilliyinin inkişafına yol açmış olur. İdrak fəaliyyəti, idrak müstəqilliyi tələbələrin intelektual qabiliyyətlərini xarakterizə edən xüsusiyyətlərdir, düşüncə, təfəkkür interaktiv fəaliyyətdə özünü göstərir və inkişaf edir. İdrak bacarıqları öyrənənə faktiki (faktlar və hadisələr), konseptual (nəzəriyyələr və modellər), prosedur (metodologiya və proseslər) və metokoqnitiv (tənqidi düşüncənin yolları və təcrübələri barədə məlumatlı olmaq) kimi dörd növü işləmək imkanı verir. Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrdə idrak fəallığının inkişaf etdirilməsində təfəkkür mühüm rola malikdir. Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsi üçün tələbələrdə həm yaradıcı, həm tənqidi, həm də məntiqi təfəkkür inkişaf etidirilməlidir. Təfəkkür, düşüncə, idrak insanın ən ali xüsusiyyətidir. Təfəkkür idrak fəaliyyəti ilə bağlı funksiyadır. Hadisələrin içində gizli qalanın mənasını incələmək, düşünmək, araşdırmaq, onların səbəb və əsasını anlamaq və hadisələrin yaranmasının və cərəyan etməsinin təbii vəziyyətini incələyib bilməkdən ibarətdir. İnsan beyni nəinki nələri isə yadda saxlayır, yaddaşımızı qoruyur, verilənləri əzbərləmək üçün yardımçı olur. Həmçinin o düşünür, yeni həll yolları arayır, tapır, yaradır, kəşf edir və s. Gördüyümüz kimi insan beyni iki işi həyata keçirir. Yadda saxlamaq və düşünmək. Yadda saxlamaq hafizəyə xas funksiyadır. Düşünmək isə təfəkkürə aiddir. Tələbələrdə idrak fəallığının inkişaf etdirilməsində təfəkkürün rolu mühümdür. Təfəkkürün 3 növü var: məntiqi, tənqidi, yaradıcı Analiz, sintez, müqayisə, nəticənin çıxarılması, əsas ideyanın müəyyən edilməsi, mümkün olan hər şeyin tədqiq və analiz edilməsidir. Tələbə məntiqi təfəkkürünə əsaslanaraq ümumi ideyaları tətbiq edə bilir, informasiyanı dərk edə bilir. Məntiqi təfəkkür problemli vəziyyəti inkişaf etdirir. Tənqidi təfəkkür ilə tənqid edən münasibət bildirir, məsləhət verir, ən yaxşı yolu göstərir, müsbət və mənfi tərəfləri bildirir. Tənqidi təfəkkür ilə qiymətləndirmə, öz münasibətini bildirməsi, müxtəlif nöqteyi nəzərdən məsələyə baxılması. Tənqidi düşüncə 21-ci əsrin ali təhsilində ən çox müzakirə olunan öyrənmə nəticələrindən biridir. Tədqiqatçılar bu bacarığı daha çox nəticə çıxarmaq və qərar vermək üçün məlumatların təhlili, sintezi və qiymətləndirilməsini ehtiva edən məqsədyönlü düşüncə kimi təyin edirlər (9).

Yaradıcılıq, əməkdaşlıq və problem həll etmə ilə yanaşı, tənqidi düşüncə ən çox tələb olunan 21-ci əsr bacarıqları arasında təsnif olunur (10).

Yaradıcı təfəkkür isə təxəyyülün köməyi ilə yeni ideyaların, modellərin, sxemlərin, qaydaların və s. yaradılmasıdır. Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində müxtəlif interaktiv təlim metodlarından istifadə etməklə tələbələrdə idrak fəallığını inki-

şaf etdirmək olar: a) əqli hücum, b) müzakirələr, c) rollu oyunlar; d) təqdimatlar; e) tədqiqatın aparılması; f) məntiqi təfəkkürün inkişafına yönəlmiş metodlar; g) tənqidi təfəkkürün inkişafına yönəlmiş metodlar; h) yaradıcılığa yönəlmiş metodlar; k) təşkilati metodlar; m) qruplara bölünmə; n) fəallaşdırma və s. (3).

Təlim o zaman effektli olar ki, hər bir fərd onu tətbiq edərkən özünə xeyir gətirəcək, təlimi özü dərk etməyə, özü öyrənməyə, özü qiymətləndirməyə, özü tətbiq etməyə yönələcəkdir. Düzgün strategiya seçiminin uğuru onda olmalıdır ki, tədris öyrənən üçün, təlim isə öyrədən üçün aydındır. Araşdırmalara görə, siniflərdə bir-birindən fərqli 3 dünya mövcuddur: müəllimlərin gördüyü və idarə etdiyi hər kəsə məlum olan dünya; öyrənənlərin qarşılıqlı münasibətlərinin yarımgizli dünyası; öyrənənin ağlında baş verənlərin gizli dünyası. Təhsilverən təhsilalanlar arasında baş verənlərin təqribən 70 faizini görmür və ya bilmir (11).

Düzgün təlim strategiyalarının tətbiqi isə müəllimdən peşəkarlıq tələb edir. Araşdırmalar nəticəsində məlumdur ki, peşəkarlıq səviyyəsi yüksək olan müəllimlərin göstərdiyi təsir peşəkarlıq səviyyəsi aşağı olan müəllimlə müqayisədə fərqlilik təşkil edir (12).

S.A. Məmmədov və R.J. Əliyev ali məktəblər üçün hazırladıqları proqramın izahat vərəqində yazırlar: "Hər bir mövzunun məzmununa uyğun yeni təlim metodu seçilməli və tətbiq edilməlidir" (5, s. 3).

**Məqalənin aktuallığı.** Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsinin mühüm əhəmiyyəti, onlarda idrak fəallığının inkişaf etdirilməsini şərtləndirən amillərin sistemləşdirilməsi problem baxımından aktuallıq təşkil edir.

**Məqalənin elmi yeniliyi.** Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsinin əhəmiyyəti, vacibliyi diqqət mərkəzinə gətirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsinin əhəmiyyəti ilə bağlı tədqiqatda əldə olunan nəticələr faydalı təkliflər kimi səciyyə daşıyır.

## Ədəbiyyat


1. Allahverdiyev B.V. Ümumikitab tarixi. Bakı: Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 2003, 384 s.
2. Cəbrayılov İ. Müasir ali təhsil və tələbə şəxsiyyətinin formalaşdırılmasının bəzi məsələləri // Azərbaycan məktəbi, № 1, 2017.
3. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal (interaktiv) təlimi metodikası: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı, 2011, 668 s.
4. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Bakı: "Çap ART" nəşriyyatı, 2017, 28 s.
5. Məmmədov S.A., Əliyev R.Y. Pedaqoji universitet və institutlarda bakalavr hazırlığı üçün "Azərbaycan tarixi" proqramı, Bakı, 2009, 59 s.
6. Mərdanov M.C Azərbaycan təhsili dünən, bu gün, sabah. Bakı: Təhsil, 2006, s. 21-36.
7. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2012, 350 s.
8. Kapuza A., Kersha Y., Zakharov A., Khavenson T. Educational Attainment and Social Inequality in Russia: Dynamics and Correlations with Education Policies. / Educational Studies Moscow, no 4, 2017, pp.10–35. doi: 10.17323/1814–9545–2017–4–10–35.
9. Halpern D. F. Assessing the Effectiveness of Critical-Thinking Instruction. The Journal

of General Education, vol. 42, no 4, 1993, pp. 238–254.

10. Lai E.R., Viering M. Assessing 21st Century Skills: Integrating Research Findings. Vancouver, BC: National Council on Measurement in Education, 2012.

11. Nuthall G.A. The hidden lives of learners. Wellington: New Zeland Council for Educational Research. 2007.

12. Slater H., Davies N., &Burgess S. Do teachers matter?Measuring the variantion in teacher effectiveness in England. Centre for Market and Public Organisation Working Series No. 09, 2009. /212, aviable online

atwww.bristol.ac.uk/cmpo/publications/papers/2009/wp212.pdf

**Т.Ф. Исмайлова**

## Важность развития познавательной активности студентов при преподавании истории азербайджана интерактивными методами в ВУЗах

### Резюме

Реформа образования, осуществляемая в Азербайджанской Республике, требует развития новых образовательных ресурсов для высшего образования, применения новых технологий обучения. Интерактивные методы обучения помогают учащимся самостоятельно открывать новые знания. Студент выступает в роли субъекта, раскрывая свое «индивидуальное я». Интерактивность происходит независимо от желания ученика, а это приводит к принудительной активации мысли, мышления. Все это мотивирует ученика к познавательной деятельности: с помощью интерактивных методов обучения преподаватель не только передает знания ученикам, но и помогает им развивать независимое и творческое мышление граждан и личностей.

**T.F. Ismailova**

## The importance of developing students' cognitive activity in teaching the history of Azerbaijani by interact methods in universities

### Summary

The education reform implemented in the Republic of Azerbaijan requires the development of new teaching resources for higher education, the application of new teaching technologies. Interactive teaching methods help students to discover new knowledge independently. The student acts as a subject, revealing his "individual self". Interactivity takes place regardless of the student's wishes, and this leads to the forced activation of thought, thinking. All this motivates the student to cognitive activity. With the help of interactive teaching methods, the teacher not only imparts knowledge to students, but also helps them to develop independent and creative thinking citizens and personalities.

**Redaksiyaya daxil olub:** 26.02.2021

# Tarix dərslərində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması

**Aysun Əlövsət qızı Əhmədzadə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** aysunehmedova98@gmail.com

**Rəyçilər:** t.ü.f.d, dos. S.X. Məmmədova,
p.ü.f.d. D.M. Musayev

**Açar sözlər:** siyasi mədəniyyət, ictimai şüur, mənəvi tərbiyə, parlamentli respublika, prezidentli respublika

**Ключевые слова:** политическая культура, общественное сознание, нравственное воспитание, парламентская республика, президентская республика

**Key words:** political culture, public consciousness, moral education, parliamentary republic, presidential republic

Cəmiyyət müxtəlif rənglərdən – düşüncələr, fikirlər, mövqelər, yanaşmalardan ibarətdir. Amma bunların hər birini bir araya gətirmək üçün mütləq siyasi mədəniyyət formalaşdırılmalıdır (5).

Məktəbdə siyasi mədəniyyətin yaradılması pedaqogikanın ən vacib problemlərindəndir. Müasir şərait məktəblilər və gənclər arasında siyasi mədəniyyətə malik olmaq üçün həm obyektiv, həm də subyektiv şərait yaratmışdır. Siyasi mədəniyyət – siyasi fəaliyyətlərdə, siyasi hadisələrin qiymətləndirilməsində və siyasətlə əlaqəli olaraq ifadə olunan tarixən formalaşmış sabit dəyərlər, münasibətlər, inanclar, fikirlər, davranış modelləri sistemidir (1, s. 138).

Ümumtəhsil məktəblərində tarix dərslərində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması müasir təhsil siyasətinin bir hissəsi hesab oluna bilər. Bununla yanaşı, müəllimlərin interaktiv təlim metodlarından istifadə etməklə təhsilalanların siyasi mədəniyyətini formalaşdırması zəruridir. Azərbaycan tarixi dərslərində hələ V sinifdə mövzuları tədris edilən zamandan etibarən dövlətimizin rəmzlərindən istifadə olunmasının xüsusi önəmi vardır. Bunun üçün ilk növbədə dövlətimizin rəmzləri ilə bağlı informasiyalar təhsilverənin izahına daxil edilməlidir.

İkinci addım kimi şagirdlərə bununla əlaqədar əlavə ədəbiyyat məsləhət görülməli və onunla işləməyin yolları izah edilməlidir. Şagirdlərə bayrağımız, himnimiz, gerbimizin yaranması, məna və funksiyaları haqqında referatlar hazırlamaları da tapşırıla bilər. Həmçinin şagirdləri bu rəmzlərə hörmət, onları uca tutmaq ruhunda tərbiyə etmək biz müəllimlərin borcudur.

Məktəb mühitində təhsilalanlarda siyasi mədəniyyətinin yaradılması üçün materialın qavranılmalı, dərk edilməli, yaddaşa həkk olunmalı və nəhayət, praktikada istifadə edilməlidir. Şagirdlər səbəb-nəticə əlaqələrinin fərqinə varmalıdırlar.

Tarix dərslərində şagirdlərdə siyasi mədəniyyəti formalaşdırmaq işinin əsas mərhələləri:

1. Şagirdlərin yeni informasiyanı qavramasına şərait yaratmaq; 2. Yeni tarixi faktları hazırlamaq; 3. Dərketmə prosesi; 4. Lazımi prosesləri, anlayış, terminləri möhkəmlətmək; 5. Şagirdlərdə dərslik, illustrativ vasitələr, sənədlərlə işləmək qabiliyyəti formalaşdırmaq; 6. Mənimsənilən məlumatları praktikada istifadə etməyi öyrətmək və s. (2, s. 575-576).

Bir neçə il bundan əvvələ kimi məktəblərdə insan və cəmiyyət fənni də tədris edilirdi. Məhz tarix fənni ilə yanaşı bu fənnin tədrisi zamanı da şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması mümkün idi. Lakin artıq bu fənn məktəblərdə olmadığı üçün tarix fənnin üzərinə bu mənada daha çox yük düşür. Tarix fənni həm ötən dövrü, həm də müasir dövrü əks etdirdiyi üçün bizə siyasi mədəniyyəti formalaşdırmağa və inkişaf etdirməyə yardım edir. Möv-